**"Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" 1998-ci il 22 aprel tarixli 91 nömrəli və "Azərbaycan Respublikasının ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan malların siyahısı haqqında" 2005-ci il 31 yanvar tarixli 11 nömrəli qərarlarına əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 25 yanvar tarixli 17 nömrəli qərarında dəyişiklik edilməsi haqqında**

**Azərbaycan Respublikasının Nazirlər Kabineti**

**Qərar *№ 325***

*Bakı şəhəri, 13 noyabr 2013-cü il*

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, qeyri-neft sektorunun inkişafına dövlət dəstəyinin daha da gücləndirilməsi, yeni və müasir texnologiyaların tətbiqinin təşviq edilməsi məqsədi ilə Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" 1998-ci il 22 aprel tarixli 91 nömrəli və "Azərbaycan Respublikasının ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan malların siyahısı haqqında" 2005-ci il 31 yanvar tarixli 11 nömrəli qərarlarına əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 25 yanvar tarixli 17 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 1, maddə 68) 3-cü hissəsində "üç" sözü "altı" sözü ilə əvəz edilsin.

**Artur RASİ-ZADƏ,**

**Azərbaycan Respublikasının Baş naziri**